
“Bu yer üzü bircə vətən,
bircə məskəndir. Sizə
yaraşır ki, yadlığa səbəb
olan şöhrətpərəstliyi
tərk edib ürəyinizi
ahəngdarlığı təmin
edəcək şeylərə
bağlayasınız.”
— *Bəhaullah*



T**ƏBİƏT ALƏMİ,** özünün bütün ecazkarlığı və əzəməti ilə qarşılıqlı asılılığın mahiyyəti barədə dərin bəsirət verir.

Bir bütöv olaraq biosferdən tutmuş ən kiçik mikroorqanizmlərə qədər bu, bir həyat formasının çoxlu digər həyat fomalarından necə asılı olduğunu – və hər hansı bir sistemdə tarazlığın pozulmasının bütöv sistemdə necə əks olunduğunu göstərir.

Bu böyük sistemə dərindən bağlı olan və ondan son dərəcə asılı olan bəşər ailəsi, nəticələri hər keçən gün daha da ağırlaşan bir paradoksla üzləşir. Bir tərəfdən, bəşəriyyət əvvəllər heç vaxt planet miqyasında fiziki dünyanı şəkilləndirmək gücünə malik olmamışdır ki, bunu bəziləri dövr olaraq antroposen adlandırırlar. Bu bizim kollektiv məharətimizin və yaradıcı olmağımızın, habelə, qarşımızdakı hədsiz potensialın bir dəlilidir. Digər tərəfdən isə, məhz o güc, düşüncəli yanaşma ilə mötədilləşdirilmədikdə, bu gün və gələcəkdə ümumi rifaha laqeyd olan prioritetlərlə istiqamətləndirildikdə, dünya səviyyəsində, həm də geridönməz nəticələrə səbəb olur.

Planetin imkanlarının aşılmasının ağır təsirləri iqlim dəyişikliyindən tutmuş biomüxtəlifliyin itirilməsinə, ətraf mühitin dağıdılmasına və çirklənməyə qədər getdikcə açıq-aşkar göründükcə, bəşəriyyət həm xalqlar arasında, həm də insanla ətraf mühit arasında daha yetkin, əməkdaşlığa yönəlik və konstruktiv münasibətlər qurmağa məcbur olur.

Ətraf mühit məsələləri üzərində düşüncə Birləşmiş Millətlərin İnsanlığın Ətraf Mühiti üzrə 1972-ci ildə keçirilən əlamətdar konfransından bəri inkişaf etmişdir. Keçən yarım əsr ərzində istər elmi, hüquqi, istərsə də təsisat nöqteyi-nəzərindən əldə edilmiş nailiyyətlər gələcək üçün güvən səbəbi və ümid mənbəyi kimi çıxış edir. Amma bu gün anlayışdakı yüksəlişlər daha tez və daha geniş miqyasda əmələ çevrilməlidir. İnsan işlərinin təşkilində və aparılmasındakı sürətli dəyişikliklər zəruri və qaçılmaz olan mövcudiyyət şərtinə çevrilmişdir. Lazım olan addım şüurlu bir seçim olaraqmı atılacaq yoxsa ətraf mühitin sürətlənən dağılmasından yaranan dağıntı və iztirabın nəticəsi olaraq - dünyanın millətləri və liderləri qarşısındakı sual budur.



## TƏBİƏT ALƏMİNİN ƏMANƏTDARLIĞI

Planetdə bütün həyat formaları arasında təbiət aləminə ən misilsiz təsiri məhz insan varlıqları göstərir. Bu zaman-zaman, sahiblik və hökmranlıq anlayışı ilə dəstəklənərək təbiət üzərində hakimlik və nəzarət meylinə haqq qazandırılması kimi şərh edilmişdir. Lakin bəşəriyyətin ətraf mühitlə bağlılığı və ondan asılılığı getdikcə daha və daha çox insan tərəfindən dərk edildikcə, onlar bizim bu misilsiz təsirimizin təbiət aləmini bəsləmək və qorumaq kimi qaçılmaz vəzifəsini də özü ilə gətirdiyini qəbul edirlər.

Bizim hər birimiz dünyaya bütövün bir əmanəti kimi daxil oluruq. Hər kəsin də öz növbəsində hamının rifahı və bizim asılı olduğumuz planet üçün bir məsuliyyət payı vardır. Bu dünya miqyaslı əmanətdarlıq hissi bəşəriyyətin təbiət aləminə təsirini aradan qaldırmağa çalışmır.

Sivilizasiyanı saxlamaq və irəlilətmək üçün maddi resurslara həmişə ehtiyac olacaqdır. Amma burada məqsəd o təsiri daha şüurlu, yaradıcı və şəfqətli etməkdir.

Planetin xam resurslarını hamının faydası üçün ən yaxşı şəkildə necə istifadə etməyi öyrəndikcə biz öz yaşam qaynağımıza münasibətimizin fərqində olmalıyıq. Bizim fəaliyyətimiz, yer kürəsinin sərvətlərinin və xarüqələrinin onun resurslarına ədalətli və bərabər şəkildə əllərinin yetməsini haqq edən bütün insanların müştərək mirası olması faktını əks etdirməlidir. Bizim seçimimiz planetin gələcək sakinlərinin rifahının qərarçıxarmanın bütün səviyyələrində nəzərə alındığı bir nəsillərarası perspektivi göstərməlidir. Bəşər tarixinin bu təlatümlü dövründə isə bizim fəaliyyətlərimiz artan yetkinliklə gələn hikmət və mühakimə ilə getdikcə daha çox mötədilləşdirilməlidir.

**"Dünyada ümumun rifahına xidmətdən daha nəcib bir əməl varmı?... Allaha and olsun ki, xeyr!"**

*— Bəhai müqəddəs yazılarından*



# Tək Qlobal Vətəndə Tək Xalq

Planeti bütünlüyü ilə əhatə edəcək qədər geniş bir perspektivdən bəşəriyyətə ancaq vahid qlobal bir vətəndə yaşayan tək bir xalq olma işığında baxmaq olar. Ədalətli münasibətlərlə ifadə olunan bu birlik zehniyyəti, üzərində dayanıqlı cəmiyyətlərin yaradıla biləcəyi yeganə təməli təşkil edir.

Hər bir xalq öz tərzi ilə təbiətin zəngin gözəlliyini və əzəmətini vəsf edir. Hər bir mədəniyyətin ənənələri canlı varlıqların yalnız fiziki ehtiyaclarını deyil, həm də ruhun transendental keyfiyyətlərini dəstəkləyib saxlayan o qiymətsiz mirasa dəyər verir. Dayanıqlı və çiçəklənən bir dünya qurmaq vəzifəsi ancaq müştərək səylərdə deyil, həm də nəticənin sevinclə bayram edilməsində birlik nöqtəsi təqdim etmək vədi verir.

Bəşəriyyətin birliyini etiraf etmək ifadə, mədəniyyət və ya ictimai-sosial təşkilatlanmanın müxtəlifliyini boğmur. Birlik prinsipi özündə mühüm birlik konsepsiyasını ehtiva edir; doğrudan da, bunu yeknəsəklikdən fərqləndirən də məhz budur. Təbiət aləmində sistemlər yüksək dərəcədə çeşidlənmiş elementlərin qarşılıqlı təsiri ilə inkişaf edir. Müxtəlif komponentlər arasındakı fərqlər bütövün funksiyasını yüksəldir və sistemin bütövlükdə özünübərpa çevikliyini gücləndirir.

Dayanıqlı və çiçəklənən bir dünya qurmaq vəzifəsi ancaq müştərək səylərdə deyil, həm də nəticənin sevinclə bayram edilməsində birlik nöqtəsi təqdim etmək vədi verir.









Tək Qlobal Vətəndə Tək Xalq (davamı)

İnsan işlərində düşüncə müxtəlifliyi, mənşə və yanaşma eyni dərəcədə mühümdür. Məhz müxtəlif perspektiv və təcrübələrin qarşılıqlı təsiri ilə daha yüksək dərəcə həqiqət tapıla və bəsirət əldə edilə bilər. Əks halda, bənzər baxış və fikirlərin həddən artıq çoxluğu, tək bir təbii mənbədən ifrat dərəcədə asılı olmaq sistemi təhlükələrə məruz qoyur və onu dağılmağa açıq qoyur.

Bəşəriyyətin təbiətlə münasibətlərini yenidən tarazlığa gətirmək üçün getdikcə daha böyük sayda əhalinin yaxşı əlaqələndirilmiş və birləşmiş töhfələri tələb olunacaq.

Milli, irqi, sərvət və ya hər hansı bir xüsusiyyətlərə görə hər hansı bir qrupun digərindən üstünlüyü fərziyyəsi konsensus yaratmaq və uzlaşdırılmış hərəkəti dəstəkləyib davam etdirmək üçün lazım olan bağları zəiflədir. Yadlıq hissi dəyişməz olaraq istər sosial, istərsə də ekoloji cəhətdən olsun, ümumi rifah naminə işləmək üçün motivasiyanı tükəndirir.



## TRANSFORMASİYAEDİCİ DƏYİŞİKLİYİN PROTAQONİSTLƏRİNİN GÜCLƏNDİRİLMƏSİ

Yer kürəsinin bütün sakinləri təbiət aləmi ilə harmoniyada irəli gedən qlobal bir cəmiyyətin meyvələrindən dadmaq fürsətini haqq edirlər. Belə bir cəmiyyəti qurmaq məqsədilə onun yaradılmasına gətirəcək konstruktiv proseslərdə iştirak etmək üçün insanlar hər yerdə gücləndirilməlidirlər. Ona görə də fərdlərdə, icmalarda və təsisatlarda transformativ dəyişikliklərə səmərəli şəkildə töhfə vermək qabiliyyəti yaratmaq effektiv ətraf mühit fəaliyyətinin əvəzedilməz bir elementidir.

Fərdlər üçün bu, bir sıra əlaqəli qabiliyyətlərin – elmi, texniki, sosial, mənəvi-əxlaqi və ruhani qabiliyyətlərin inkişafını nəzərdə tutur. Fərdi və kollektiv həyatın daha sağlam və dayanıqlı modellərini yaratmaq üçün fərdlərdə konsepsiyalar, faktlar barədə anlayış, həmçinin, müvafiq bacarıq, münasibət və keyfiyyətlər yetişdirilməlidir.

Yerli icmalar kontekstində, qabiliyyət yaratmaq mədəniyyətin zənginləşdirilməsini və onun şüurlu formalaşdırılmasını ehtiva edir. Fərdlərin bir araya gələ bildiyi, güclərin dəfələrlə artdığı və bu güclərin kollektiv səylərdə özünü göstərdiyi, insan ruhunun ən yüksək şəkildə ifadəsinin cəmiyyətin işlərinin təşkilində yeni yollar ilə nümayiş etdirildiyi bir mühit yaratmaq kimi meydanoxuyucu məsələ icmaların üzərinə düşür.

Təşkilati strukturların da möhkəmləndirilməsinə diqqət verilməlidir. Hər bir səviyyədə elə qabiliyyətli təsisatlar lazımdır ki, onlar, vasitəsilə fərdlərin və qrupların istedad və enerjilərinin ümumi rifaha xidmətdə ifadə olunduğu kanal kimi işləsinlər.

**“Biz davamlı olaraq insan xoşbəxtliyi üçün yeni təməllər qurmalı, bu məqsədlə yeni vəsilələr yaratmalı və yaymalıyıq.”**

***— Bəhai müqəddəs yazılarından***





## *ARAŞDIRMA ÜÇÜN TƏKLİFLƏR*

Təxirəsalınmaz hərəkət tələb edən ətraf mühit reallıqları, insanlıqdan prinsipin, tərəqqiyə proses yönümlü yanaşma ilə aydınlanmış hərəkətlə getdikcə daha yetkin bir şəkildə əlaqələndirilməsini  tələb edir. Məhdudiyyətlərə baxmayaraq, hətta çağdaş ehtiyaclara daha yaxşı cavab verən yeni paradiqmaları əks etdirən təməl yaradılmaqda olsa da, mümkün qədər tez və produktiv addımlar atılmalıdır. Bu məqsədlə, bütün bu sənəd boyunca bir araşdırma ruhunda, beynəlxalq ictimaiyyətin yalnız yaxşı bir dünya xəyal etdiyi deyil, həm də əvvəllər keçilməmiş bir yolda atmağa cəhd etdiyi addımların yer aldığı hallardan ilhamlanaraq təkliflər irəli sürülür. Bu cür praktiki təcrübələr konsensus və lazımi hərəkətin, ciddi dəyişikliklərə doğru hərəkatı əngəlləyən geniş yayılmış narrativlərin fövqünə qalxmasına icazə veriləndə nələrin mümkün olması barədə bəsirətlər verir.

İnsanlığın birliyi prinsipinin həyata keçirilməsi üçün baxıla biləcək bir vasitə daxili siyasətin qlobal təsirini qiymətləndirəcək mexanizmlərin yaradılmasıdır. Razılaşdırılmış beynəlxalq məsləhətçi bir qurum milli sərhədlər çərçivəsində belə bir təsiri dəyərləndirə və düzəlişlər  və ya zəruri olarsa, vəziyyətin geriyə qaytarılmasını tövsiyə edə bilərdi.

Mövcud strukturlar daxilində təbiət aləminə münasibətdə hüquqi çərçivənin gücləndirilməsi biomüxtəlifliyə, iqlim və ətraf mühit rejimlərinə uzlaşma gətirər və planetin ümumi himayədarlıq altında olması üçün daha möhkəm təməl verə bilərdi. İdarəetmə strukturlarının bu yolla inteqrasiyası beynəlxalq ictimaiyyətin qabiliyyəti çərçivəsindədir, keçmiş təcrübələr – həm irəliləyişlər, həm də geriləmələr – istifadə edilə biləcək təməllər təqdim edir. Sülhü qoruma, mediasiya, insan haqları, rekonstruksiya ilə uzun vədəli inkişaf arasında uzlaşmanı yüksəltmək kimi səylərdə - məsələn, Birləşmiş Millətlərin Sülhüqoruma Arxitekturasının qurulmasından tutmuş sülh üçün təklif olunan yeni gündəliyə qədər – müvafiq çalışmaların bir ahəngə gətirilməsi prosesinin necə bir proses olması barədə ilkin dərslər vardır.

# Hərəkətdə Konsensus

İnsanlığı daha dayanıqlı və ahəngdar münasibətlərə doğru aparmaq kollektiv iradə ilə yanaşı, beynəlxalq ictimaiyyətin işlərini şəkilləndirməli olan açar prinsiplər ətrafında möhkəm və öhdəlikli konsensus tələb edir. Təbii resurslar üzərində nəzarət, qarşılıqlı asılılıq və ədalət kimi təməl prinsiplər ətrafında müəyyən bir səviyyədə razılaşma əldə edilmişdir. Lakin bu cür ideallar kollektiv qlobal hərəkət üçün qəbul edilmiş təməl kimi geniş yayılmalıdır.

2015-ci il Paris Razılaşmasına əsasən karbon qazının emissiyasını azaltmaq barədə ölkələrin planlarının qeyri-kafiliyi bu günə kimi  aşkar bir nümunədir. Sözlə əməl arasındakı bu boşluq dərin bir meydanoxumanın, konkret olaraq, dayanıqlılığa aid olan pinsiplərin ölkələrin seçim və davranışlarını şəkilləndirən kollektiv şüurda dərin oturuşmadığı çətinliyinin göstəricisidir.

Yaxşı nizamlanmış konsensus sadəcə kağız üzərindəki mətnin adı və çağırışı ilə deyil, həm də əlaqələndirilmiş, kollaborativ hərəkətlə nümayiş etdirilir; onun göstəricisi sözlər yox, əməldir. Beynəlxalq səviyyədə açar prinsiplərə və dəyərlərə möhkəm bağlılıq zəruri dəyişiklikləri tətbiq etməkdə  qaçılmaz olaraq baş qaldıran maneələri aşmaqda milli və yerli səviyyədə liderlərə kömək edir. Bu, razılaşmanı həyata keçirmək üçün zəruri olan resurslarla bir-birini təchiz edən ölkələr üçün məntiqi səbəbləri aydınlaşdırır. Və bu, məhdud və ya məncil maraqlara əsaslanan keçmiş etirazları aradan götürməkdə cəmiyyətlərə kömək edir.

Dünya xalqlarından imzalanmış, amma tətbiq olunmama səbəbilə müqavilələrin gücsüzlüyünə bundan sonra dözmələri istənilə bilməz. Kollektiv şəkildə qəbul edilmiş və hamının müdafiə etdiyi prinsiplərə uyğun addımlar atılmalıdır. Beynəlxalq nizam planetar dəyişikliklərə planetar cavabı səmərəli surətdə asanlaşdıran bir dayaq üzərinə qoyulmalıdır.

Yaxşı nizamlanmış konsensus sadəcə kağız üzərindəki mətnin adı və çağırışı ilə deyil, həm də əlaqələndirilmiş, kollaborativ hərəkətlə nümayiş etdirilir...






## *ARAŞDIRMA ÜÇÜN TƏKLİFLƏR*

Dayanıqlı İnkişaf Hədəfləri (DİH) kimi qlobal məqsədlər ətrafında konsensus, dayanıqlılıq və inkişafın eyni dərəcədə vacib imperativlərinin tətbiq olunması barədə hələ çox öyrənilesi şeyin olduğunu ümumən etiraf etmək ətrafında bir çərçivəverici məşvərət aparmaqla sağlam şəkildə hərəkətə çevrilə bilərdi.

Bəzi ölkələr öz vətəndaşları üçün yüksək səviyyə maddi inkişafı təmin ediblər, amma istehlak edilən və yaranan tullantı cəhətdən müvazinətsiz ekoloji təsir buraxırlar. Digərləri isə daha dayanıqlı bir ekoloji modelə malikdirlər, amma onlar  öz vətəndaşlarının ən təməl ehtiyaclarını ödəmələri üçün ciddi maddi inkişafa ehtiyac durumunda qalıblar. İstiqamətində hər bir ölkənin işləməli olduğu hədəf, dayanıqlı və ətraf mühitlə ahəngdar münasibətləri təmin edən vasitələrlə bütün əhalinin rifahı üçün işləməkdir. Bu universal hədəfin mərkəzdə dayanması, ətrafında konsensusun kollektiv, məqsədyönlü hərəkətə çevrildiyi vacib bir birlik nöqtəsini vermiş olardı.

İqlim və ətraf mühit standartları ilə yanaşı, mənəvi-əxlaqi və etik standartlar ətrafında öhdəlikli bir konsensusa gəlmək prinsipin mənfəətdən önə keçməsini təmin etməyə kömək edə bilər. Bu, beynəlxalq ictimaiyyət üçün tanış olmayan bir sahə deyildir. Məsələn, münaqişələrlə əlaqəsi olan almaz dövriyyəsini məhdudlaşdırmaq üçün Birləşmiş Millətlərin qoyduğu sertifikatlaşdırma prosesindən dəyərli dərslər almaq olar. O prosesin hansısa çatışmazlığına baxmayaraq, bu, məhsulun dəyəryaratma zəncirində müxtəlif addımlarda təhlil və nizamlama üzrə konkret tədbirlərə çevrilən etik və sosial amillər üzrə konsensusa aid bir haldır.





# Tərəqqi Anlayışına Yeni Tərif Verilməsi

Əgər insanlığın təbiət aləmi ilə münasibəti yenidən qurulmalıdırsa, tərəqqi, sivilizasiya və inkişaf məfhumlarına da yenidən tərif verilməsinə ehtiyac vardır. Rifah ətrafında mərkəzləşən büdcələr və ya ümumdaxili məhsul yerinə daha bütöv tərəqqi göstəriciləri kimi bu istiqamətdə qoyulan səylər genişləndirilməli və dərinləşdirilməli, fundamental sualların araşdırılması növbəti mərhələlərə keçməlidir. Hansı keyfiyyətlər hesabına bir şəxs, ölkə yaxud korporasiya müvəffəq hesab edilir? Onlar nəyə görə təqdir olunur və qiymətləndirilir?

Nə qədər ki bu cür suallar sərvəti münasibətlərdən, yaxud qazanmağı məsuliyyətdən üstün tutan dəyərlərə uyğun olaraq cavablandırılır, dayanıqlı bir dünyaya malik olmaq imkan xaricindədir. Öz təbiəti və insan ruhuna təsiri etibarilə bu cür dəyərlər fasiləsiz olaraq ifrata, istismara və tükənməyə çağırır. Onlar həmçinin, yadlaşdırıcı (koredici) zənginliyin və zəiflədici yoxsulluğun kobud ifratına yol açır. Bunlar nə dərəcədə kənara qoyularsa, yalnız o qədər də onların yaratdığı - xüsusilə, sərhədli planetdə sərhədsiz böyümə gözləntisi ilə - dərin ziddiyyətlər həll edilə bilər. Və ancaq tərəqqi yeni cəhətdən başa düşüldüyü təqdirdə, indiki ətraf mühit böhranının fundamental hərəkətverici qüvvələri dəqiq müəyyən edilə və davamlı dəyişiklik əldə edilə bilər.

Açıq şəkildə etiraf edilməli olan şey budur ki, heç bir ölkə hələ dayanıqlı inkişaf prosesində yüksək dərəcəyə nail ola bilməyib. Sənayeləşmənin, texnoloji potensialın və makroiqtisadi böyümənin müəyyən formaları çox vaxt inkişafla bərabər tutulur. Amma ənənəvi olaraq inkişaf etmiş hesab edilən yerlərdə yaşayan kütlələrin qeyri-məmnunluğu və çətinlikləri, dünya boyunca saysız-hesabsız digər əhali qruplarının üzləşdikləri ədalətsizliklər və təbiətin zorlanmasından belə bir baxışın ən yaxşı halda natamam olduğunu və çox vaxt da ağır dərəcədə ziyanlı olduğunu heç də az olmayan dərəcədə nümayiş etdirir. Heç kəsin həyat tərzi və cəmiyyət barədə baxışı bütün insanlığın can atmalı olduğu model ola bilməz.



## İQTİSADİ MEXANİZMLƏRİN YENİDƏN MƏNALANDIRILMASI

Müasir iqtisadi mexanizmlər həm ekosistemlərin dağılması, həm də çoxlu yerli icmaların və fərdlərin həyatlarının yoxsullaşması ilə nəticələnmişdir. Bərabərsizlik və ədalətsizlik artır, istəklərin davamlı yaradılması və ödənməsinə xas olan ziyan etiraz ediləcək dərəcəni aşıb. Dünyanı ekoloji cəhətdən daha dayanıqlı təməllər üzərinə qoymaq qlobal iqtisadi nizamı yenidən formalaşdırmağı tələb edir. Mənfəət və iqtisadi qazanc keçmişdə necə dəyərləndirilirdisə, bu gün insanlar və planet o cür açıq-aşkar dəyərləndirilməlidirlər.

İndiki qeyri-tarazlıq böyük ölçüdə bir sıra formalarda olan ifratlardan yarandığından, mötədillik prinsipi qlobal mexanizmlərdə də özünün tam ifadəsini tapmalıdır. Böyümə ilə motivasiya olunan paradiqmalarda yer almayan kifayətlənmək, qane olmaq və sadəlik konsepsiyaları geri qaytarılmalı və genişləndirilməli olacaq. İfrat zənginliklə assosiasiya olunan həyat tərzləri - məsələn, rahatlıq və dəbdəbəyə bağlılıq, yaxud yüksək dərəcədə istehlak və israfçılıq – kənara qoyulmalı olacaq. Tərəqqi, inkişaf və firavanlıq barədə elementar anlayışlara daha da bütövlük şərtləri ilə yenidən tərif verək lazım gələcək.

Bu hədəflər istiqamətində hərəkat, iqtisadi mexanizmlərin onların özlərinin məqsədindən daha yüksək olan dəyərlərə uyğun nizama salınmasını tələb edəcək. Fərdlərin, icmaların, biznes mühitinin və millətlərin praktiki təcrübələri buna şübhə yeri qoymur ki: sərvət və resursların yaradılması, yayılması və istifadəsinin özündə ona xas olan bir mənəvi-əxlaqi boyut var.

Bir qrup öz qonşularını nəzərə almadan ancaq öz rifahı barəsində düşünəndə və ya ətraf mühitə necə təsir edəcəyini nəzərə almadan iqtisadi mənfəət əldə edəndə, bundan bütün insanlığın kollektiv həyatı əziyyət çəkir. Hər bir seçim bir iz buraxır. Ona görə də iqtisadi qərarlar yüksək ideallara uyğun qəbul edilməlidir. Sərvət insanlığa xidmət etməlidir. Ümumi rifaha xidmət edə bilməkdə açıq şəkildə uğursuz olan baxışları, strukturları, qaydaları və sistemləri davam etdirməyə heç bir haqq qazandırıla bilməz.

**"İnsanların həyat şəraiti elə təşkil edilməlidir ki, yoxsulluq aradan götürülsün, hər kəs mümkün olduğu qədər … rahatlıq və rifahdan pay alsın."**

***— Bəhai müqəddəs yazılarından***



## Tərəqqi Anlayışına Yeni Tərif Verilməsi (davamı)

Tərəqqi barədə daha bütöv bir konsepsiya yaradılması bir növ olaraq özümüz haqqında, o cümlədən, insan ruhunun özü haqqında həqiqətlər barədə anlayışın genişləndirilməsini tələb edəcək. Planet, onun insanları və yaradılmış bütün sakinləri fərdə sırf mənfəətpərəst, dünyanın maddi sərvətlərindən getdikcə daha çox pay toplamaqda başqaları ilə rəqabət aparan iqtisadi vahid kimi baxmaqdan ölçüyəgəlməz dərəcədə əziyyət çəkiblər. Bu cür karikatur mənzərə böyük ölçüdə sadə və primitiv olması ilə formal nəzəriyyə səviyyəsində rədd edilmişdir. Amma qlobal nizamın bir çox cəhətləri hələ də bu fərziyyələrə əsaslanır və bu çox vaxt onları gücləndirir və dərinləşdirir.

İnsan təbiəti barədə daha dəqiq anlayış  stabil bir sosial nəzmin kərpicləri olan etibarlılıq, qarşılıqlı dəstək, həqiqətə sədaqət və məsuliyyət hissi kimi keyfiyyət və münasibətləri ehtiva etməlidir. Bu, reduktiv materializmin xəstəliklərindən qaçacaq yaxud onları yaxşılaşdıracaq modelləri meydana çıxarar və bizim firavanlıq uğrunda qoyduğumuz cəhdlərimizin fərdi və kollektiv rifahın digər çoxlu cəhətlərini əhatə etməsini təmin edərdi.

Tərəqqini yenidən mənalandırmaq keçmişin haqlı nailiyyətlərini danmaq deyil, gələcəkdə olacaq nailiyyətlərin sərhədlərini genişləndirmək deməkdir. İnsanlığın qarşısında sahiblik və istifadəçiyə yeni yanaşmalardan tutmuş yeni forma urbanizasiya, yeni kənd təsərrüfatı metodlarına, enerji istehsalı və ötürülməsinə qədər imkanlar genişdir. Onları yaxalamaq hər bir fərddə  və bir bütöv olaraq insanlığın birləşmiş səylərində gizli olan insan potensialının tam ifadəsini tələb edəcəkdir. Lakin qarşıdakı onilliklər insanlığın tarixində müstəsna dərəcədə zəngin və xeyirli olmaq baxışını saxlayır. Cəmiyyətin çoxlu seqmentlərində lazım olan transformasiyanın misli görünməmiş miqyası nə qədər qorxuducu olsa da, bu, insanın yaradıcı düşüncəsinin və təşəbbüsünün böyük bir ölçüdə açılması üçün imkanlar açır.

## *ARAŞDIRMA ÜÇÜN TƏKLİFLƏR*

Dayanıqlı İnkişaf Hədəfləri 17.19 ümumdaxili məhsula tamamlayıcı olaraq tərəqqi tədbirlərinin görülməsinə çağırır. Bu, Birləşmiş Millətlər Təşkilatının Baş Katibinin səsləndirdiyi diqqətəlayiq bir məqsəddir və lazımi prioritetlik və resurs dəstəyi almalıdır. Məsələn, istər ad hoc, istərsə də Birləşmiş Millətlərin müntəzəm təqviminə uyğun olsun, beynəlxalq yığıncaqlar bunların hər biri üçün spesifik olan tematik fokus perspektivindən tamamlayıcı tədbirləri araşdıra bilərdi.

Ölçü və qiymətləndirmənin bütövlük xarakteri almasına əlavə olaraq, tərəqqinin özünün müasir konsepsiyalarına yenidən baxılmalı və bir çox cəhətləri isə yenidən formalaşdırılmalıdır. Bu məqsədlə, ekspertlər komitəsi və ya bənzər bir qurum hazırda qoyulan vədverici səyləri davam etdirə, araşdırılmasına ehtiyac olan məsələləri müəyyən edə, alternativləri qeyd edə və hərəkət üçün yetişmiş sahələri müəyyən edə bilərdi. Məqsəd bir araşdırma nəticələri məcmusu toplamaq deyil, bəlkə daha çox dayanıqlı sivilizasiyanın nələri ehtiva etdiyi və  onun xüsusiyyətlərinin lazımınca necə dəyərləndirilə və yayıla biləcəyi barədə davamlı bir tədqiqat prosesi olmalıdır. Bu cəhətdən dərs olacaq misallardan biri Ozon Qatını tükəndirən maddələr  barədə Montreal Protokolunun qəbul edilməsidir ki, onda beynəlxalq ictimaiyyət qlobal tərəqqiyə atmosferi zədələyən kimyəvi maddələrin istifadəsinin dayandırılmasının, o maddələrin davamlı satışından gözlənilən maliyyə mənfəətindən daha çox xidmət etdiyi barədə geniş qəbul olunmuş konsensusa gəldi.

# Daha Yüksək Prinsiplərə Uyğunlaşmaq

İnsanlığın mövcudluğu yalnız fiziki güclərlə deyil, həm də  səbəb və nəticə əlaqəsi ilə işləyən sosial və əxlaqi qanunlarla idarə olunur. Tamahkarlıq nə qədər məharətlə əsaslandırılsa və gizlədilsə də, ümumi rifah üçün dağıdıcıdır. Fədakar şəfqət hərəkətləri zahirən nə qədər sadə və ya təcrid olunmuş görünsə də, dəyişməz olaraq özündə motiv və ilham gücü daşıyır.

Bu cəhətdən, təbiətlə daha ahəngdar münasibətlərə aparan yol ancaq texnoloji düzəlişlər edilməklə gedilən bir yol deyildir. Bu, həmçinin, özlərini daha yüksək prinsiplərə kökləyən icmaları və cəmiyyətləri də əhatə etməlidir.

Hər bir fərddə gizli qalan nəcib keyfiyyətlərin açılması min illər ərzində dini təlimlərin və ideallların əsas qayğısı olmuşdur. Fanatizmin və təriqətçi ehkamçılığın o qədər dini ənənələrin əsasında duran əxlaqi və etik impertailəri sarsıtmış olmasını çətin ki danmaq mümkün olsun. Bununla belə, transendent dəyərləri hamının rifahı və yaxşılığı üçün əmələ çevirmək üçün fəal işləyən icmalar ciddi baxılmağı haqq edən təcrübə bazasını təmsil edirlər.

"İnsanın dəyəri xidmət və məziyyətdədir, sərvət və var-dövlət dəbdəbəsində deyil," Həzrət Bəhaullah çoxlu digər misallar arasından birini qeyd edərək maddi mal-mülkün fövqünə qalxan dəyərlərə əsaslanan şəxsi kimlik və kollektiv qarşılıqlı fəaliyyətlərə yanaşmanı misal verərək təsdiq edir.  Bu cür ideallar artan sayda insanların düşüncə və davranışına necə nüfuz edir və bu proses şüurlu şəkildə necə başlanılə və sürətləndirilə bilər – bunlar ətraf mühit hərəkatı və bütövlükdə insanlıq üçün mərkəzdə duran suallardır.



### *ARAŞDIRMA ÜÇÜN TƏKLİFLƏR*

Etik prinsipləri və onların inkişafını və əhali arasında tətbiqini başda qoyan cəmiyyət modelləri barədə öyrənilisi çox şeylər qalır. Sadəcə hazır həll yolları axtarmaqdansa, Birləşmiş Millətlər Təşkilatının hər bir agentliyi daxilində mənəvi-əxlaqi və etik prinsiplərin praktiki tətbiqini öyrənmək üçün bir mərkəz yaradılması insanın bütün təcrübəsi boyunca irəliləyişinin necə ola biləcəyi barədə bilik yaradardı.

Maddi inkişafa nəzərəçarpan alternativ dünya üzrə çoxsaylı insan kütlələrinin insan ruhunun transendentallığına və onun ilahi ilə əlaqəsinə verdikləri əhəmiyyət üzərində qurula bilər. Fədakarlıq, digərləri ilə həmrəylik və təbiətin resurslarını himayə etmək və qorumaq kimi ruhani prinsipləri geniş əsaslı sosial tərəqqinin irəlilədilməsi üçün tətbiq etməyi öyrənməkdə olan icmalar haqqında sistematik və elmi bir araşdırma aparılmasından çox şey öyrənmək olardı.  Birləşmiş Millətlər Təşkilatının artıq dini mənşəli təşkilatların cəlb olunması ilə görülən iş üzərində fokuslanmış təşəbbüslərinə əlavə olaraq belə bir araşdırma, alternativ motivasiya və ilham mənbələrini  və onların icmaya və ətraf mühitin sağlamlığına etdikləri təsirə həsr oluna bilərdi.

# ELM VƏ DİN:
# BİR-BİRİNİ TAMAMLAYAN İKİ BİLİK VƏ PRAKTİKA SİSTEMLƏRİ

Daha dayanıqlı bir dünya qurmaq üçün işləyərkən insanlığın ixtiyarında bir-birini qarşılıqlı gücləndirən iki bilik və praktika sistemi vardır: elm və din.

Elmi araşdırma fiziki gerçəkliyi başa düşməkdə, həqiqəti axtarmağa və öyrənməyə təəhhüdə əsaslanan innovativ həll yolları tapmaqda həyati vacib bir vəsilə olmuşdur. Təəssüb və qərəzdən azad olmaq kimi dəyərlərlə birləşərək elm bəşəriyyəti faktı fərziyyədən ayırmağa qabil etmişdir. Müşahidə, ölçmə, hipotezlərin ciddi-cəhdlə sınaqdan keçirilməsi kimi kompleks elmi qabiliyyətlər bizə fiziki gerçəkliyi idarə edən qanun və proseslər barədə uzlaşmış anlayış yaratmaq imkanı vermişdir. Sadəcə tədqiqatçı və akademiklərin sahəsi olmaqdan çıxaraq elmi araşdırma metodologiyaları hər bir fərdin və ya icmanın istifadə edə biləcəyi alətlərdir.

Din isə öz tərəfindən yüksək ideallların hamının faydası üçün fərdin və cəmiyyətin həyatına tətbiq edilməsini mümkün edən çərçivəni təqdim edir. Dünyanın davam gətirmiş dinlərini canlandıran ruhani prinsiplər məna, məqsəd, yaxşı həyat və yaxşı cəmiyyətin təbiəti kimi sualları ünvanlamaqda fərdlərə və bütöv əhali qruplarına kömək etmişdir. Bu ideallara sadiq qalanda din insan varlıqlarını sadəcə istismar olunacaq və ya doydurulacaq istehlakçılara qədər kiçildən materializm ideologiyalarından qoruyan bir dayaqla təmin edir. Özünün ən yüksək məqamında din yalnız dürüstlük, gözəl xasiyyət, yüksək qətiyyət, əməkdaşlıq və fədakar davranış kimi məziyyətlərə çağırmamışdır, həm də fərqli ünsürləri birləşdirərək, yüksək idealları praktikada təzahür etdirmək üçün uzlaşmış icmalar yaradaraq böyük sayda insanları bu cür prinsiplər ətrafında birləşdirmişdir.

Birlikdə götürüldükdə, elm və din, vasitəsilə davamlı tərəqqinin əldə edilə biləcəyi fundamental təşkiledici prinsiplər verir. İnsanlığın həm maddi, həm də ruhani boyutları nəzərə alınanda, və həm elmi, həm də dini biliyə lazımi diqqət veriləndə insan tərəqqisini məhsulların, xidmətlərin və texnoloji paketlərin istehlakına qədər kiçiltməkdən qaçılır. Həm elm, həm də din fərdlərin və icmaların cəhalət və passivlik tələsindən qurtarmaları üçün mühümdür. Sivilizasiyanın irəlilədilməsi üçün hər ikisi həyati vacibdir.



**“Din və elm iki qanaddır ki, onların vasitəsilə insan zəkası yüksəkliklərə uçar, insan ruhu tərəqqi edə bilər.”**

***— Bəhai müqəddəs yazılarından***







# Ədalət Proses və Nəticə Kimi

Planetar səviyyədə autentik birlik konsepsiyasının açılışı üçün mərkəzdə dayanan məsələlər ədalətlə bağlıdır. Geniş yayılmış iztirabların insanlığın təbiətlə istismarçı münasibətinin nəticəsi olması, çoxlarının məhrumiyyətinə səbəb olaraq yerin resurslarının cəmi bir neçə seçilmiş qruplar tərəfindən ifratçı və israfçı istifadəsi, indiki anın tərcihlərinin gələcək nəsillərin təməl ehtiyaclarından üstün tutulması – bütün bunlar insanlara və planetin özünə qarşı dərin ədalətsizliyi üzə çıxarır.

Bu cür xəstəlikləri sağaltmaq yaradıcılıq, əzmkarlıq, cavabda təvazökarlıqla yanaşı vicdanlı bir hesablaşma tələb edəcəkdir.  Mövcud nizama görə əlverişsiz vəziyyətdə qalmış insanların səsləri bütün səviyyələrdə qərar qəbuletmə proseslərində daha çox yer alacaqdır. Təbiətlə daha ahəngdar münasibətlər saxlamış və çoxu da şəhərtipli yerlərdən çox başqa yerlərdə yaşayan əhali qruplarından bəsirətlər almaq lazım gələcəkdir. İnsanlığın, xüsusilə yerli xalqların təbiət aləmi ilə münasibətinin müxtəlif mədəni anlayışlara söykənməsi indiki və gələcək nəsillər üçün daha bütöv və dayanıqlı modellərin yaradılması üçün bəsirətlər verə bilər.

Ədalət geniş diapazonda nəticələr tələb edir ki, məsələn, insan sivilizasiyasının faydaları ədalətlə bölüşdürülsün, yaxud zəruri keçid dəyişiklikləri üçün məsuliyyət indiki iqlim böhranına aktorun tarixi töhfəsi işığında proporsional şəkildə verilsin. Lakin nəticə səviyyəsində ədalət ancaq ədalətin proses səviyyəsində işləməsi ilə yaradıla bilər. Fərdi səviyyədə ədalət insanın mühakiməsində insaflı olmasını və başqaları ilə rəftarında qərəzsiz olmasını tələb edir. Qrup səviyyəsində isə ədalət, fərdlə cəmiyyətin maraqlarının sıx bağlı olması barədə agahlığın praktiki ifadəsidir. Bu həmçinin, bu günkü münasibətləri daha çox xarakterizə edən danışıq və güzəşt modellərinin xaricinə çıxan həqiqət aracılığı meyarı - prinsipə söykənən, açıq və fakta əsaslanan məşvərət və qərarçıxarma prosesi tələb edir.

Ədaləti təzahür etdirmək qabiliyyəti – və bunu etmək öhdəliyi - bütün səviyyələrdə möhkəmləndirilməlidir. Ədalətli və bərabərhüquqlu münasibətlər ümumi fayda üçün istənilən birləşmiş qlobal hərəkatın təməli üçün əvəzedilməzdir.

## *ARAŞDIRMA ÜÇÜN TƏKLİFLƏR*

Ədalət sözlə əməl arasında uzlaşma tələb edir. Ona görə də beynəlxalq ictimaiyyət yeni qurumlar yaratmaq və yeni razılaşmalar əldə etməkdən başqa, artıq verilmiş vədlərin yerinə yetirilməsini bütün gələcək səylər üçün bir bünövrə etməlidir. Bunu etmək son illərdə təhlükəli dərəcədə pozulmuş etibar yaddaşını – seçilmiş qurumlara etibar, xəbər mediasına etibar, elmi kəşflərə etibar və dünya liderlərinin götürdükləri öhdəliklərə etibar – bərpa etməkdə kömək edər.

İndiki strukturlar çərçivəsində təklif olunan siyasətlərin gələcəkdə göstərəcəyi təsirləri qiymətləndirmək və modelləşdirmək  üçün daha ədalətli vasitələr yaratmaq  üçün qlobal mexanizmlər qurula bilər. Məsələn, Gələcək Nəsillər naminə Birləşmiş Millətlərin təklif edilən Xüsusi Nümayəndəsi halında göründüyü kimi, belə bir yanaşma yerlərdən öyrənilmiş dərslərdən çıxış edərək belə gələcəyə yönəlik bir istiqamət qərarçıxarmanı indiki aktorların dar maraqlarından qorumaqda, orta və uzaq vədəli mühit, bərabərlik və resurs idarəetməsini qoruyardı.

## ÖYRƏNMƏ HALƏTİ - BİR İŞ TƏRZİ KİMİ

Təbiət aləmi ilə dayanıqlı bir münasibətdə olmuş dünya sivilizasiyası heç vaxt mövcud olmamışdır. Ona görə də, geniş spektrli sosial və ekoloji vəziyyətləri əks etdirərək onun bir çox nahiyələrdə əsaslarının qoyulması, qlobal miqyasda bir öyrənmə prosesi tələb edir. Elementar tələblər və təməl prinsiplər fiziki proseslərdən tutmuş siyasi çərçivələrə qədər bir diapazonu əhatə edən bir sıra sahələrdə müəyyən edilmişdir. Amma prinsiplərin sosial transformasiyanın spesifik vəziyyətlərinə hikmətli tətbiqi ancaq təcrübə vasitəsilə öyrənilə bilər.

Öyrənməni ətraf mühit barədə hərəkət etməyin mərkəzdə dayanan obyekti kimi götürmək spesifik vərdiş və davranışlar tələb edir. Öyrənmə halətində işləyərkən baxış və strategiyalar vaxtaşırı yenidən nəzərdən keçirilir. Planlar zaman keçdikcə böyüyür və edilmiş hərəkət, yaranmış təcrübə və öyrənilmiş dərslər işığında modifikasiya olunur. Hərəkət sadəcə hadisə və layihələrlə müəyyən edilmir, bəlkə daha çox proses yönümlü olur. Sistemsiz və təsadüfi dəyişiklik edilməsindən qaçılır və səylərin davamlılığı saxlanılır.

Səmimi və gerçəkdən öyrənmə formal strukturlar və proseslərdən asılı olduğu qədər aktorların motiv və niyyətlərindən də asılıdır. Məsələn, status və reputasiya yaxud etibar və ittiham qayğıları ilə xarakterizə olunan beynəlxalq bir konfrans, yaxşı praktika və öyrənilmiş dərslərin paylaşılmasına neçə sesiya həsr edilməsindən asılı olmayaraq faydalı bəsirətlər çıxarmaq üçün ancaq mücadilə verməklə məşğul olacaq.

Öyrənməyə yönəlik olmaq, həmçinin, tərəqqi yolundakı səhvlərin və geriləmələrin rolunu başa düşməyi tələb edir. Elmi metod sınaq və səhv dialektikasından tam istifadə edərkən, beynəlxalq proseslər çox vaxt elə lap əvvəldən mükəmməl proqram və ya siyasət axtarışı ilə özünü tükədir.

Bu, araşdırma mədəniyyəti və münasib həll yolları axtarış mədəniyyəti ilə əvəz olunmalı, və bu zaman etiraf olunmalıdır ki, bu işlə məşğul olanlar zaman-zaman geriləmələrlə üzləşəcək və uğursuz olacaqlar. Təvazökarlıq öyrənməyə açılan qapıdır.

Hərəkətdə öyrənmə haləti üçün həyati olan bir məsələ vəziyyətin gerçəkliyi barədə konsensusa gəlmək və mövcud olan seçimlər arasında ən hikmətli hərəkət istiqamətini müəyyən etmək prosesi kimi başa düşülən məşvərət prinsipidir. Məşvərət prosesində fərdi iştirakçılar öz nöqteyi-nəzərlərinin fövqünə qalxmağa çalışır, təkbaşına deyil, öz məqsədi və hədəfləri olan kollektivin üzvləri kimi işləyirlər. Açıqlıq və nəzakətliliklə xarakterizə olunan bir atmosferdə ideyalar (fikirlər) onu söyləyənə deyil, bütövlükdə qrupa məxsus olur. Həqiqət müxalif maraq qrupları arasında güzəşt kimi qəbul edilmir, nə də iştirakçılar bu prosesdə biri digərini idarə etməyə can atır. Burada məqsəd fikir və hərəkətin birliyindən doğan gücü istifadə etməkdir. Verilən qərarların təsir edəcəyi şəxslərin gələcəyi və arzuları həmişə yadda saxlanılır.

Daha dayanıqlı cəmiyyətlərin qurulması yalnız mövcud biliyin tətbiqini deyil, həm də yeni biliyin yaradılmasını nəzərdə tutur. Bu biliyin böyük hissəsi yerli səviyyədə eksperimentlər vasitəsilə əldə edilmiş bəsirətlərdən ibarət olacaqdır. İlkin müşahidələr sıravi (təməl) səviyyə aktorların şəxsi hekayələrindən daha çox şey ola bilər. Lakin zaman keçdikcə bir model formalaşmağa başlayır ki, onu sənədləşdirmək və təhlil etməklə getdikcə daha zəngin bir bilik toplusuna çevirmək olar və bu bilik geriyə, sıravi səviyyələrə geri qaytarıla və növbəti səyləri şəkilləndirə bilər. Bu cür başa düşüldükdə, dayanıqlı bir dünya qurmağın öyrənilməsi ancaq məhdud bir ekspertlər qrupunun iş sferası olmur, həm də insanlığın kütlələrinin töhfəsinə etibar etməklə onların təşviq edilməsinə söykənən bir işə çevrilir.

**"Bilik insan həyatının qanadları, onun yüksəlişi üçün bir nərdivandır. Onu hər kəsin əldə etməsi gərəkdir."**

***— Bəhai müqəddəs yazılarından***

# Dövlətin Rolunun İstifadə Edilməsi

Daha dayanıqlı bir dünya qurmaqda bir çox aktorların özlərinin oynamalı rolları var. Kollektiv hərəkəti bəsləmək və öz üzvlərinin innovativ qabiliyyətlərini dəfələrlə artırmaqda yerli icmalar çox iş görə bilər. Gənclər davamlı olaraq cəmiyyəti yeni yollarla təşkil etməyə, ön sıralarda olmaqla öyrənməyə hazırlığa, özlərini yüksək səylərə və gələcək nəsillərin rifahına bağlamağa açıqlıq nümayiş etdirirlər. Müasir iqtisadi nizamın əsas dayağı olmaqla biznes və sənayenin fayda dalğası yer kürəsi boyunca cəmiyyətlərdə və ərazilərdə əks-səda verən konstruktiv qərarlar qəbul edə bilərlər. Lakin milli hökumətin rolu bu gün misilsiz və görkəmlidir. İnsanlığın tarixinin indiki məqamında milli dövlət qlobal siyasi nizamın təməl vahidlərindən biridir. Ona görə də dövlətlər transmilli ətraf mühit meydanoxumalarını ünvanlamaqda əvəzedilməz rola malikdir.

Ümumun rifahının qoruyucusu kimi dövlətin mandatı təbiəti etibarilə uzun vədəlidir və seçki tsikli və siyasi müddətləri aşan bir mandatdır. Səmərəli hökumət gələcək nəsillər naminə öz yurisdiksiyasında olanların hamısının çiçəklənməsini təmin edir. Dövlət həmçinin, istər öz sərhədləri daxilində, istərsə də sərhədlərin xaricində başqa təsisatlarla əməkdaşlıqda ümumun malının, məsələn, hamının faydası üçün olan şeylərin idarə olunması və onun qayğısına qalınmasının idarə edilməsi məsuliyyəti daşıyır.

Dövlətin tam gücü ətraf mühit meydanoxumalarında istifadə edilməlidir. Cəmiyyətin çeşidli sektorları boyunca bütün sənayeni yenidən qurmaq geniş miqyasda maliyyə qaynaqları, iş və fiziki infrastrukturu ehtiva etməklə onilliklərin işidir. Ona görə də uzun vədəli planlar qurması, onları zamanla metodik olaraq irəli aparması və zəruri irəliləyişlərin mümkün olmasına imkan verən şəraitin yaradılması ilə hökumətin rolu həyati əhəmiyyətə malikdir.

Bəzi hallarda bu subsidiya, təzminat, nizamlayıcı mexanizmlər, yaxud lazım olan hərəkəti başlatmaq üçün digər vasitələr şəklini ala bilər. Bir başqa halda isə norma qoymaqda hökumətin rolu istənəcək və izah edən, təşviq edən və həvəsləndirərək hərəkətə çağıran fərdi liderlər tələb olunacaq. Bunların hamısında idarəedici təsisatlar nəsillərcə davam edəcək keçidi bəsləmək və dəstəkləyib davam etdirmək üçün misilsiz bir mövqedə dayanırlar.





Əgər dövlətlər ətraf mühit qayğılarını səmərəli ünvanlamalıdırlarsa, liderliyə münasibətdə yeni keyfiyyət və münasibətlərin qurulması mühüm olacaq. Şəxsi xarakter bu cəhətdən mərkəzdə dayanır və ictimaiyyətə xidmətə şəxsi qazanc yolu kimi deyil, məsuliyyət kimi yanaşan, seçkidə qazanmağa və ya şəxsi inkişafa deyil, daha yüksək məqsədlərə sədaqət və hesabatlılıq nümayiş etdirən və çətin olan, lakin daha böyük rifah naminə qərarlar qəbul edən liderlərin rəhbərliyi altında tərəqqi görünə bilər. Bu cür əxlaqi cəsarət liderin ən davamlı nailiyyətləri arasında dayanır və hər hansı konkret zamanın və ya siyasi iqlimin dəyişilməsindən çox-çox sonralar da xatırlanacaqdır.

Son illər dövlətin rolu haqqında pessimizm artmışdır və bu doğrudur ki, hökumətlər öz funksiyalarını yerinə yetirə bilməyəndə və ya qaydalar və meyarlar qoymaq rolu korporativ maraqları olanlara verilərkən, xidmətlərin verilməsi insan varlığını mənfəət motivinin tələblərindən aşağı tutan bir tərzdə özəlləşdirilərkən, siyasi korrupsiya və rasionallıq ümumi rifahı şəxsi mənfəətə  qurban verərkən hökumət işləmək istəməyəndə çoxlu insanlar əziyyət çəkiblər.

Yaxşı idarəetmə özəl sektorun, elmi ictimaiyyətin, vətəndaş cəmiyyətinin və digərlərinin ən yüksək töhfələrini verə biləcəkləri konteksti yaradır.

Bununla belə bu cür düşüncələr hökuməti qınamaqdan daha çox onun malik olduğu misilsiz gücü xatırlatmaqdır. Yaxşı idarəetmə hərəkət gücünün fərdi təşəbbüs səviyyəsində açılmasına və kollektiv iradə səviyyəsində qaynamasına imkan verir. Yaxşı idarəetmə özəl sektorun, elmi ictimaiyyətin, vətəndaş cəmiyyətinin və digərlərinin ən yüksək töhfələrini verə biləcəkləri konteksti yaradır. Ona görə də, hökumətin ictimai etibarın yayıcısı kimi funksiyalarını mümkün qədər tamlığı ilə yerinə yetirməsinin təmin edilməsi hamının marağındadır.



## QƏRARÇIXARMA NÖQTƏSİ

Qlobal proseslərin həm kəndlərdə, həm də qitələrdə eyni dərəcədə hiss edildiyi bir dövrdə münasib qərarçıxarma nöqtəsinin müəyyən edilməsinə dayanıqlı diqqət ayırmaq lazım olacaq. Bu cəhətdən açar məsələ qərarların optimal nəticənin əldə edilə biləcəyi səviyyədə çıxarılması prinsipidir.

Bu prinsipə sadiqlik, bir çox hallarda güc və səlahiyyətin əsaslı şəkildə yerli icmalara və idarəetmə təsisatlarına ötürülməsini nəzərdə tuta bilər. Qərarçıxarma prosesləri qarşıdakı illərdə daha inkluziv, məhəlli və hamılıqla iştirakla səciyyələnəcəkdir. Hər bir əhali özünün tərəqqi yolunu özü cızmaq haqqı və məsuliyyətinə malikdir və hər birinin də daha dayanıqlı bir sivilizasiya qurmaqda verə biləcəyi vacib töhfələr vardır. Bundan ötəsi, təcrübə göstərmişdir ki, hər hansı bir proqram və siyasətin, həyatlarına toxunan insanların təəhhüdü olmadan tətbiqinin asılı olduğu əhali arasında kök salması çətin olur.

Məhəlli olmaq istiqamətini tamamlayaraq, münasib qərarçıxarma, həmçinin, zəruri olduqda, milli dövləti aşan səviyyələrdə də hərəkət edilməsini tələb edir. Bir sıra ətraf mühit problemləri miqyas və təsir baxımından sərhədləri aşır və ona görə də ancaq milli səviyyədəki qanunvericiliklə həlli mümkün deyil. Ona görə də milli maraqlar naminə təbii narahatlıq  firavan beynəlxalq ictimaiyyətə xidmətdə səmərəli və əlaqələndirilmiş hərəkəti asanlaşdıran qlobal strukturlarda öz ifadəsini tapır. İrəli getmək üçün həyat gücü olan yeganə yol dərinləşən qlobal əməkdaşlıq sistemindədir.

Hər bir səviyyədə qoyulan səylərin yetərliliyi onların arasında olan bağlar sisteminin keyfiyyətindən və qarşılıqlılığından asılıdır. Sıravi səviyyədəki şərtlərdən ayrı götürülsə, milli və ya qlobal səviyyədə siyasət qurulması mücərrəd və nəzəri ola bilər – və ona görə də uyğunsuz və əkstəsirli ola bilər; eynilə də, icma səviyyəsindəki təşəbbüslər, əgər onlar bir bütöv olaraq bəşəriyyətlə bağlı olan qlobal proseslərə bağlanmazsa, məhdud qalacaq. Odur ki praktiki təcrübə və təhlillərlə bilik və bəsirətlər yaradıldıqca, onların ötürülməsini asanlaşdırmaq üçün strukturlar tələb olunacaq.

**"[Bəşəriyyətin birliyi prinsipi] milli impuls və maraqların vahid dünyanın imperativ tələblərinə tabe edilməsini təkidlə tələb edir. O bir tərəfdən ifrat mərkəzləşməni rədd edir, digər tərəfdən isə yeknəsəkliyə aid bütün cəhdləri əsassız sayır."**

***— Bəhai müqəddəs yazılarından***





## *ARAŞDIRMA ÜÇÜN TƏKLİFLƏR*

Öz insanlarının – son nəticədə bütövlükdə bəşərin firavanlığına əsaslanan – rifahını yüksəltməkdə dövlətin məsuliyyətləri ictimai siyasətin formalaşdırılmasında birinci dərəcəli əhəmiyyət daşıyır. Ona görə də qərarlar qəbul edilən forumlar elə bir formada strukturlaşdırılmalıdır ki, dövlətin ümumi rifahı digər, daha məhdud qayğılardan daha üstün tutmasını təmin etsin. Bu gün qanun və siyasətin müəyyən olunduğu bir çox mühitlər ən azı qismən maliyyə mənfəəti və ya siyasi güc toplamaq kimi maraqlarla hərəkətə gələn digər aktorlar tərəfindən dərin təsirə məruz qalır. Ona görə də elə mexanizmlər lazımdır ki, bu cür aktorların – istər çox ölkələri əhatə edən korporasiyalar, media qurumları, texnoloji platformalar, xüsusi maraq qrupları, istərsə də digərləri olsun – iştiraklarının uzun vədəli dayanıqlılığı gücləndirən, insanların təmsilçilərinin vicdanlı səylərini sarsıtmayıb, əksinə yüksəltdiyi dərəcəyə qədər daxil edilmələrini təmin etsin. Birləşmiş Millətlər Təşkilatı kontekstində bu, məsələn, çox böyük maliyyə və ya digər maddi qaynaqlara əli çatan qeyri-dövlət aktorlarına imtiyazlı münasibətin göstərilməsinə və qeyri-münasib təsir gücünə malik olmasına icazə verməyən siyasətin formalaşdırılması şəklini ala bilərdi.

İqlim meydanoxumalarını ünvanlamaq üçün lazım olan hərəkətin miqyası ilə faktiki olaraq görülən tədbirlər arasındakı boşluq çox vaxt guya maliyyə qaynaqlarının olmamasına bağlanılır. Halbuki ümumi rifahı yüksəltmək üçün resursların lazımi ehtiyaclara uyğun şəkildə, ağıllı səfərbərliyi və xərclənməsi dövlətin təməl məsuliyyətidir. Ona görə də idarəedici təsisatların həm indiki, həm də gələcək nəsillər qarşısında mühüm borcları var. Bu məsuliyyət indiki təxirəsalınmaz və gələcək tələbləri ünvanlamaq üçün ədalət, qabiliyyət və məsuliyyət meyarlarını lazımınca nəzərə alaraq yetərli resursları yaratmaqda dövlətə əxlaqi və etik bir mandat vermişdir. Bu, həmçinin, o resursların dayanıqlı olmayan və ya destruktiv olan həyat tərzlərini maliyyələşdirmək üçün deyil, insanlığın rifahının irəlilədilməsi üçün xərclənməsini tələb edir. Bu cür məsuliyyətlərin, milli siyasət üçün nələri nəzərdə tutduğuna əlavə olaraq, qlobal səviyyəyə qədər genişləndirilməsi, ölkələr arasında iqtisadi mexanizmlərdə əhəmiyyətli dərəcədə düzəlişlər edilməsini, xüsusilə, onların arasındakı kobud və destruktiv sərvət bölüşümünü yaxşılaşdırmaq üçün lazım olan addımların atılmasını tələb edəcəkdir. Bu məqsədlə son bir neçə on il ərzində qlobal vergi koordinasiyasını təmin edən mexanizm, yaxud qeyri-qanuni maliyyə axınını nizamlayan bir çərçivə kimi çeşidli tədbirlər təklif olunmuşdur. Düşüncəli bir şəkildə tətbiq olunduğu halda, bu cür təkliflər mövcud qlobal resurslar hovuzunu yaxşı istifadə etməkdə çox iş görmüş olardı.

# Bizi Gözləyən Dünya

Sayı getdikcə artan insanlar ətraf mühitlə harmoniyada olan firavan, qlobal bir sivilizasiya baxışı ilə bu istiqamətdə işləyirlər. Bütövləşən və tarazlıqda olan, gözəl və kamil bir dünya bizə əl edir. Bu, öz yüksək canatmalarının reallaşdırılması istiqamətində öz təsisatlarının dəstəyi ilə birlikdə işləyən icmalar və fərdlərlə dolu, yenidən mənalandırılmış bir tərəqqi dünyasıdır. Bu, çox vaxt tərəqqi üçün zəruri şeylər kimi təsdiq edilən - sosial, iqtisadi və ətraf mühit sahəsində - destruktiv mənəvi-əxlaqi güzəştlərdən getdikcə azad olan bir dünyadır.

Bu baxış istiqamətində hərəkat başlamışdır; o sürət yığmaqdadır. Uca iddialar ifadə edilmiş və görünməmiş miqyasda hərəkətə çağırış edilir. Lakin indiyə kimi transformasiya tempi bu anın tələblərinə cavab verəcək səviyyəyə yüksəlməmişdir. Əgər hərəkət gələcəyə saxlanılarsa, zəruri düzəlişləri etmək üçün mövcud olan seçimlər diapazonu ancaq daralacaqdır. İnsanlıq onun taleyi ilə planetin taleyinin ayrılmaz surətdə bağlı olması həqiqəti üzərindən hərəkət edəcəkmi? Yoxsa onu hərəkətə vadar etmək üçün daha böyük fəlakətlər lazım olacaq?

Bu baxış istiqamətində hərəkat başlamışdır; o sürət yığmaqdadır.

Niyyətlə hərəkət arasındakı uçurum bu gün insanlığın üzləşdiyi ən əsas meydanoxumalardan biridir. Bu uçuruma körpü salmaq olar. Fərdlər, icmalar və millətlər bu hədəfə hər gün öz töhfələrini verirlər. Lakin hərəkətin tələb olunan miqyasa qalxması üçün millətlər arasında insanlığın inkişafının indiki mərhələsinin tələb etdiyi dəyərlər ətrafında daha möhkəm konsensus və kollektiv iradə lazımdır. Bu, habelə, indiki saatın çağırdığı mənəvi-əxlaqi və praktiki çağırışa cavab vermək yolunda dayanan hər şeyi gözardı edərək və ümumi rifaha fayda gətirən şeylərə yenidən təəhhüd götürərək o dəyərləri əməldə yerinə yetirməkdə daha böyük qətiyyət tələb edir. Bu, doğrudan da, nəcib bir təşəbbüsdür və bunun bəhrəsi gələcək nəsillərə ötürülməli olan qiymətsiz bir mirasdır. Gəlin onun tələblərinə cavab vermək üçün birləşək.



